**İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması"**
**Koalisiyası Monitorinq Qrupunun**
**H E S A B A T I**

İctimai Birliklərin MSŞA Koalisiyasının Monitorinq Qrupu hesabat dövründəki fəaliyyətini Koalisiyanın Əsasnaməsinin 11-ci maddəsinə və Koalisiyanın 07 mart 2007-ci il tarixli IX Ümumi Yığıncağında qəbul edilmiş MQ Əsasnaməsinə uyğun qurmuşdur.

Koalisiyanın 16 dekabr 2005-ci il tarixli Ümumi Yığıncağında MQ-yə 3 üzv seçilib (H.Rizvanqızı, F.Əliyev və N.Cəfəroğlu). Koalisiyanın IX Ümumi Yığıncağında MQ üzvlərinin sayının 3-dən 5-ə qaldırılması haqqında qərar qəbul edilmiş və əlavə 2 yerə seçki keçirilmişdir (R.Hüseynova və A.Mehtiyev). Belələklə, sonuncu ÜY-dan sonra MQ 5 nəfərlik tərkiblə fəaliyyətə başlamışdır.

Lakin, təəssüflə qeyd etməliyik ki, hesabat dövründə MQ ümumiyyətlə tam tərkibdə fəaliyyət göstərə bilməmişdir. Belə ki, MQ-nin 1 üzvünün – N.Cəfəroğlunun – bu dövr ərzində MQ-nin iclaslarına qatılmaq imkanları məhdud olmuş, başqa bir üzvü – H.Rizvanqızı – isə Koalisiyadan istefa verdiyindən may ayından etibarən MQ-nin üzvlüyündın də çıxmışdır. Təbii ki, bu vəziyyət MQ-nin fəaliyyətinin təşkili səviyyəsinə birbaşa mənfi təsir göstərmişdir: yetərsay alınmaması üzündən Qrupun iclaslarını vaxtlı-vaxtında keçirmək mümkün olmayıb, nəzərdə tutulan ayrı-ayrı fəaliyyətlər arzu olunan səviyyədə baş tutmayıb. Hesabat dövrü ərzində MQ-nin 9 iclası keçirilib: bunların 2-də 4 üzv, qalan 7-də isə 3 üzv iştirak edib.

Bununla belə, əvvəlki hesabat dövrü ilə müqayisədə bu hesabat dövründə MQ-nin fəaliyyətində əhəmiyyətli irəliləyişlərin olduğunu söyləyə bilərik. Belə ki, MQ fəaliyyət planını işləyərək fəaliyyətini həmin plan əsasında qurmuş, Qrup üzvlərinin Şura iclaslarında iştirakı və müşahidə fəaliyyəti haqqında təlimat, Koalisiya üzvlərinin Vahid layihə çərçivəsində həyata keçirdikləri layihə fəaliyyətlərinin monitorinqinin aparılması və nəticələrin qiymətləndirilməsi üçün qaydalar, MQ-nin hesabatının hazırlanması qaydaları və bir sıra başqa işçi sənədlər hazırlanaraq qəbul edilmiş və işin gedişində istifadə edilmişdir. Koalisiya Əsasnaməsinin 11-ci maddəsinin tələblərinə uyğun olaraq MQ Şura üzvlərinin və Koalisiya üzvlərinin fəaliyyətinin Əsasnaməyə uyğunluğuna nəzarətə başlamış, layihə fəaliyyətlərinin monitorinqini aparmışdır.

**Şuranın fəaliyyətinin izlənilməsi**

İX Umumi Yığıncaqdan ötən dövrdə Şuranın 24 iclası keçirilib. MQ bütün Şura iclaslarında daima iştirak etməyə cəhd göstərib. 4 iclas istisna olmaqla qalan bütün iclaslarda MQ-nin təmsilçiliyi təmin olunub. MQ Şura üzvlərinin iclaslara davamiyyətinin və iştirakının müşahidəsini aparmış, iclaslarda müzakirə olunan məsələlərin və qəbul olunan qərarların Əsasnaməyə uyğunluğunu diqqətdə saxlamış, müzakirələrdə və qəbul olunan qərarlarda Əsasnaməyə zidd məqamlar ortaya çıxdıqda belə hallar Şura üzvlərinin nəzərinə çatdırılmışdır.
Müşahidələr zamanı məlum olub ki, bir sıra Şura üzvlərinin iclaslara vaxtlı-vaxtında qatılması ilə bağlı ciddi problemlər mövcud olub. Məsələn, Şura üzvü Ə.Həsənov Şuranın İX Umumi Yığıncaqdan ötən dövrdə keçirilən 24 iclasının yalnız 2-nə qatılıb. Səsvermə səlahiyyətli Şura üzvü kimi onunla T.Zeynalovun bir-birlərini əvəz etməsi müddətləri ilə bağlı heç bir dəqiq ifadə olunmuş qərar olmayıb. Belə vəziyyət onların fəaliyyətlərinin qiymətləndirilməsində müəyyən çətinlik yaratdığından MQ bu məsələyə aydınlıq gətirilməsi ilə bağlı Şuraya müraciət edib. Şura üzvlərindən Mirvari Qəhrəmanlı son 24 iclasın 17-də iştirak etməyib. Bundan başqa Sabit Bağırov – 6, Sevgim Rəhmanov – 5, Aslan Vəliyev – 8, İlham Hüseynli – 4, Dünya Sakit – 8, Mehriban Vəzir – 6, İnqilab Əhmədov – 8, Telman Zeynalov – 5, Oqtay Gulalıyev və Qubad İbadoğlu isə hərəsi 1 iclasa qatılmayıblar. Lakin bunlar əksər hallarda üzürlü səbəblərlə bağlı olub və bu barədə Şura əvvəlcədən məlumatlandırılıb. Şura üzvü N.Ağayev Şuranın 25 sentyabr

tarixli iclasında həm Şura, həm də Koalisiya üzvlüyündən istefa verib. 4 dəfə isə yetərsay alınmadığından Şura iclasları baş tutmayıb.
Vahid layihə üzrə fəaliyyət istiqamətlərinin müsabiqə əsasında bölüşdürülməsi barədə qərar verildikdən və Seçim Qrupu fəaliyyətə başlayandan sonra Şura iclaslarında gərginlik yaranıb. Eyni zamanda Koalisiyadaxili elektron yazışmalarda ayrı-ayrı Koalisiya və Şura üzvlərinin bir-birlərinə olan şəxsi münasibətlərini Koalisiya səviyyəsinə qaldırmaq cəhdləri Şura iclaslarında əsəb gərginliyinin və qarşıdurmanın daha da artmasına gətirib çıxarıb. Nəticədə Şura iclaslarının əksəriyyətində gündəlikdə olan məsələlərin müzakirələrini vaxtında başa çatdırmaq mümkün olmayıb, ayrı-ayrı məsələlərin müzakirəsi lüzumsuz şəkildə uzanıb. Şura iclaslarının sədrliyində növbəlilik prinsipinə keçilməsi əslində problemlərin həllində heç də əhəmiyyətli rol oynaya bilmədi.

Şura Vahid Layihə üzrə istiqamətlərin icraçılarının seçimini müsabiqə əsasında aparılıb. Bu məqsədlə əksər Şura üzvlərinndən ibarət Seçim Qrupu yaradılıb. Müsabiqənin qaydaları və şərtləri əvvəlcədən bəyan edilib. Müsabiqə iştirakçılarının Seçim Qrupunun iclaslarında iştirak imkanları təmin olunub. Seçim Qrupunun layihə istiqamətləri üzrə təklifləri qiymətləndirmək sahəsindəki işinin təşkilinin təkmilləşdirilməsi zəruriliyi ilə bağlı MQ 2 dəfə Şuranın qarşısında məsələ qaldırıb. Seçim Qrupunun qərarlarından Monitorinq Qrupuna şikayət imkanı yaradılıb və Monitorinq Qrupunun tövsiyyəsi əsasında bir neçə dəfə Seçim Qrupunun qərarına yenidən baxılıb, təkrar müsabiqə keçirilib. Məhz MQ-nin tövsiyəsi əsasında Seçim Qrupunun qərarlarının Şurada təsdiqi təmin olunub.
Şura iclaslarında Koalisiya üzvlərinin iştirakına şərait təmin olunub. Bir sıra hallarda Şura iclaslarında Şura üzvləri ilə müqayisədə Koalisiya üzvlərinin fəallığı daha çox diqqəti cəlb edib. Hətta Koalisiya üzvlərinin Şura iclaslarının normal gedişinə maneçilik yaratdığı hallar da olub. Ona görə də Şura üzvü olmayan Koalisiya üzvlərinin Şura iclaslarında iştirakini tənzimləyən qaydaların işlənilməsini zəruri hesab edirik.

**MQ-yə edilən müraciətlərin araşdırılması**

Hesabat dövründə müxtəlif məsələlərin araşdırılması ilə bağlı MQ-yə Koalisiya üzvlərinin 18 müraciəti daxil olub. Bunlardan 2-si Seçim Qrupunun işinin təşkili, 4-ü Seçim Qrupunun qərarları, 3-ü Şuranın qərarları, 8-i ayrı-ayrı Koalisiya və Şura üzvlərinin hərəkət və davranişlarının Əsasnaməyə uyğunluğu, 1-i isə MQ-nin fəaliyyəti ilə əlaqədar olub. MQ-nin vaxtlı-vaxtında toplaşa bilməməsi bir sıra hallarda müraciətlərin vaxtında araşdırılmasına imkan verməmiş, bu isa ayrı-ayrı Koalisiya üzvlərinin haqlı narazılığına səbəb olmuşdur. Bununla belə MQ daxil olan müraciətlətin böyük əksəriyyətinin – 14-nün araşdırılmasını təmin edərək müvafiq tövsiyələrlə Şuraya müraciət etmişdir. Şura əksər halarda MQ-nin tşvsiyələrini tam və ya qismən qəbul edərək müvafiq qərarlar vermiş, 4 dəfə isə tövsiyələr qəbul edilməmişdir.
MQ-nin araşdırmanı başa çatdıraraq barəsində qərar çıxara bilmədiyi 3 müraciət Şura üzvü O.Güləliyevin Şura üzvü M.Vəzir və Koalisiya üzvü E.Abdullayev barəsində 2 müraciəti və E.Abdullayevin əks tərəflə bağlı müraciəti olub. Bu müraciətlərin araşdırılması istiqamətində MQ müəyyən işlər həyata keçirsə də bir sıra obyektiv və subyektiv səbəblərdən prosesi tam başa çatdırmaq mümkün olmayıb.
MQ müraciətlərinə vaxtında baxılmasını təmin edə bilmədiyinə və lüzumsuz ləngimələrə yol verərək onlar üçün yaratdığı narahatlıqlara görə müvafiq müraciət sahiblərindən üzr istəyir.

**Layihə fəaliyyətlərinin icrasının monitorinqi**

Koalisiyanın hesabat dövründəki faəliyyəti 2 mənbədən maliyyələşdirilib: ACİ-YF və DB.
ACİ-YF-nun qrantı hesabına keçirilən 1 illik layihənin 9 ayı başa çatıb. Bu dövr ərzində 80 min dollar vəsait ayrılıb. Dünya Bankının layihəsi üzrə 34 min 302 ABŞ dolları vəsait daxil olub. Oktyabrın 1-i vəziyyətinə bu layihə üzrə xərclənmiş vəsait 32 min 34 ABŞ dolları təşkil edib.

MQ bütün layihə istiqamətləri üzrə icra fəaliyyətinin daxili auditi (qiymətləndirilməsini) aparılıb. Qrup əksər layihələr üzrə qiymətləndirməni təmin edə bilib. Layihə istiqamətlərinin icra vəziyyətinin monitorinqi zamanı aşağıdakı məsələlər diqqətdə saxlanılıb və araşdırılıb:

- Layihədə nəzərdə tutulan fəaliyyətlərin icrası vəziyyəti (bütün fəaliyyətlər və tədbirlər nəzərdə tutulduğu müddətdə və yerlərdə keçirilibmi? Tədbirin keçirildiyini təsdiq edən sənədlər (məsələn, fotoşəkillər, audio və ya video materiallar, mətbuatda yazılar, iştirak siyahıları və s.) varmı? Tədbirlərə ekspert kimi cəlb edilənlər barədə məlumat; edilən çıxışlar (təqdimatlar) hesabata əlavə olunubmu? Və s.);
- Maliyyənin hərəkətinin sənədləşməsi vəziyyəti (zəruri müqavilələr varmı? xərcləri təsdiqləyən sənədlər (ödəniş çekləri, mədaxil və məxaric orderləri, köçürmələr üzrə bank sənədləri və s.) varmı? Həmin sənədlərdə olan məbləğlər hesabatlarda göstərilən rəqəmlərlə üst-üstə düşürmü?);
- Layihədən kənarlaşmalar (hansı fəaliyyətlər vaxtında həyata keçirilməyib, layihədən kənar fəaliyyətlər olubmu? Artıq (və ya az) xərcləmələrə yol verilibmi? Və s.

Layihə istiqamətlərinin icraçılarının heç birinin fəaliyyətində ciddi qayda pozuntularına, əsassız ləngimələrə və layihə məqsədlərindən ciddi kənarlaşma hallarına rast gəlinməyib.
Bununla belə bunu da qyd etməyi zəruri hesab edirik ki, MQ layihə tədbirlərinin icrasının cari monitorinqini kifayət qədər geniş şəkildə təmin edə bilməyib. MQ üzvləri Bakı şəhəri və regionlarda keçirilən yalnız 8 tədbirin keçirilməsində bilavasitə iştirak edə və müşahidə apara bilib. Qalan fəaliyyətlərin monitorinqi isə hesabat sənədləri əsasında təşkil olunub.
Layihə tədbirlərinin cari monitorinqi zamanı ortaya çıxan problemlərdən biri də Koalisiya üzvlərinin layihə tədbirlərində iştirakçılığı ilə əlaqədardır. MQ Koalisiya üzvlərinin layihə tədbirlərində iştiraka laqeyd münasibətindən narahatçılığını Ümumi Yığıncağın nəzərinə çatdırılmasını zəruri hesab edir.

**Koalisiya sıralarının genişləndirilməsi**

Hesabat dövrü ərzində Koalisiya Şurası 26 hüquqi və fiziki şəxsin Koalisiyaya üzv qəbul edilməsi, 1 nəfərin (M.Gülalıyev) isə Əsasnamənin 3.7-ci bəndinə əsasən Koalisiya üzvlüyünün ləğvi barədə qərar verib. Hesabat dövrü ərzində 3 üzv (2 təşkilat və 1 fərdi üzv) Koalisiyadan çıxdığını bəyan edib. Koalisiyanın 10-cu yığıncağına dair qərar qəbul edilməsini əsas götürən Şura 17 avqust 2007-ci il tarixli qərarı ilə yeni üzvlərin qəbuluna baxılmasını müvəqqəti olaraq dayandırıb.

**Şuranın fəaliyyətinə yekun rəy**

MQ hesab edir ki, Koalisiya Şurası və bütövlükdə Koalisiya hesabat dövründə xeyli dərəcədə əhəmiyyətli işlər həyata keçirib, ölkənin mədən sənayesində şəffaflığın təmin olunmasında vətəndaş cəmiyyətinin səylərinin artırılması sahəsində müəyyən irəliləyişlərə nail olub və bir sıra nailiyyətlər əldə edib. Şuranın hesabat dövründəki fəaliyyəti Koalisiyanın Əsasnaməsinə və strategiyasına uyğun həyata keçirilib. Bütün bunları nəzərə alaraq MQ Şuranın hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab edir.

Bu hesabat Monitorinq Qrupunun 19 oktyabr 2007-ci il tarixli iclasında təsdiq olunub.

MQ-nin üzvləri: A.Mehtiyev
F.Əliyev
R.Hüseynova